# QISA SURƏLƏR

## "FATİHƏ" SURƏSİ

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّح۪يمِ ﴿١﴾

اَلْحَمْدُ لِلّٰهِ رَبِّ الْعَالَم۪ينَۙ ﴿٢﴾ اَلرَّحْمٰنِ الرَّح۪يمِۙ ﴿٣﴾

مَالِكِ يَوْمِ الدّ۪ينِۜ ﴿٤﴾ اِيَّاكَ نَعْبُدُ وَاِيَّاكَ نَسْتَع۪ينُۜ ﴿٥﴾

اِهْدِنَا الصِّرَاطَ الْمُسْتَق۪يمَۙ ﴿٦﴾ صِرَاطَ الَّذ۪ينَ اَنْعَمْتَ

عَلَيْهِمْۙ غَيْرِ الْمَغْضُوبِ عَلَيْهِمْ وَلَا الضَّٓالّ۪ينَ ﴿٧﴾

### Oxunuşu

[Əuzu billəhi minəşşeydanir racim

Bismilləhir-rahmənir-rahim

Əlhəmdulilləhi rabbil aləmin. Ərrahmənir-rahim. Məliki yəvmiddin. İyyəkə nə`budu və iyyəkə nəstəin. İhdinəs-siradal mustəqim. Siradalləzinə ən`amtə aleyhim. Ğayril məğdubi aləyhim vələddallin]

### Məalı

**1.** Rəhman və Rəhmli Allahın adı ilə!

**2.** Həmd (şükür və tərif) olsun Allaha (və ya: Həmd məxsusdur Allaha) – aləmlərin Rəbbinə, **3.** (Bu dünyada hamıya) mərhəmətli, (axirətdə isə ancaq möminlərə) rəhmli olana, **4.**

Haqq-hesab (qiyamət) gününün sahibinə! **5.** Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik! **6.** Bizi doğru yola yönəlt! 7. Nemət verdiyin kəslərin yoluna! Qəzəbə düçar olmuşların və (haqdan) azmışların (yoluna) deyil!

"Fatihə" surəsini oxuduqdan sonra, "Elə olsun, qəbul eylə!" mənasında "Amin" demək sünnətdir.

## "FİL" SURƏSİ

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّح۪يمِ

اَلَمْ تَرَ كَيْفَ فَعَلَ رَبُّكَ بِاَصْحَابِ الْف۪يلِۜ ﴿١﴾ اَلَمْ
يَجْعَلْ كَيْدَهُمْ ف۪ي تَضْل۪يلٍۙ ﴿٢﴾ وَاَرْسَلَ عَلَيْهِمْ طَيْراً
اَبَاب۪يلَۙ ﴿٣﴾ تَرْم۪يهِمْ بِحِجَارَةٍ مِنْ سِجّ۪يلٍۙ ﴿٤﴾ فَجَعَلَهُمْ
كَعَصْفٍ مَأْكُولٍ ﴿٥﴾

### Oxunuşu

[Bismilləhir-rahmənir-rahim

Ələm təra kəyfə fəalə rabbukə bi əshəbil fil. Ələm yəcʻal kəydəhum fi tədlil. Və ərsələ aləyhim dayran əbəbil. Tərmihim bi hicəratim min siccil. Fəcəaləhum kəasfim mə`kul]

## Məalı

Rəhman və Rəhmli Allahın adı ilə!

**1.** (Ya Peyğəmbər!) Məgər Rəbbinin fil sahiblərinə (Kəbəni dağıtmaq üçün fillərlə Məkkənin üstünə gələn orduya) nələr etdiyini görmədinmi?! **2.** Məgər (Rəbbin) onların hiyləsini boşa çıxartmadımı?! **3.** Onların üstünə qatar-qatar quşlar (əbabil quşları) göndərdi. **4.** (O quşlar) onlara bişmiş gildən düzəlmiş (möhkəm xırda) daşlar atırdı. **5.** (Rəbbin) onları (həşərat tərəfindən) yeyilmiş yarpağa (saman çöpünə) döndərdi!

## "QUREYŞ" SURƏSİ

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

لِاِيلَافِ قُرَيْشٍ ۝١ اِيلَافِهِمْ رِحْلَةَ الشِّتَٓاءِ
وَالصَّيْفِ ۝٢ فَلْيَعْبُدُوا رَبَّ هٰذَا الْبَيْتِ ۝٣ اَلَّذ۪ٓي
اَطْعَمَهُمْ مِنْ جُوعٍ وَاٰمَنَهُمْ مِنْ خَوْفٍ ۝٤

## Oxunuşu

[Bismilləhir-rahmənir-rahim

Li iləfi qurayş. İləfihim rihlətəşşitəi vəssayf. Fəl yəʿbudu rabbə həzəl bəyt. Əlləzi ətaməhum min cuiv və əmənəhum min xavf]

## Məalı

Rəhman və Rəhmli Allahın adı ilə!

**1.** (Ya Peyğəmbər!) Qureyşin ülfəti (dostluğu və ya Allahın onlar üçün səfəri asanlaşdırması) xatirinə, **2.** Onlara qış və yay səfərini müyəssər edilməsi xatirinə. **3.** Bu evin Rəbbinə (Kəbənin sahibi Allaha) ibadət etsinlər! **4.** O Allah ki, onları aclıqdan qurtarıb doyurdu və onlara qorxudan sonra əmin-amanlıq bəxş etdi.

## "MAUN" SURƏSİ

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّح۪يمِ

اَرَاَيْتَ الَّذ۪ي يُكَذِّبُ بِالدّ۪ينِ ﴿١﴾ فَذٰلِكَ الَّذ۪ي يَدُعُّ
الْيَت۪يمَ ﴿٢﴾ وَلَا يَحُضُّ عَلٰى طَعَامِ الْمِسْك۪ينِ ﴿٣﴾ فَوَيْلٌ
لِلْمُصَلّ۪ينَ ﴿٤﴾ اَلَّذ۪ينَ هُمْ عَنْ صَلَاتِهِمْ سَاهُونَ ﴿٥﴾
اَلَّذ۪ينَ هُمْ يُرَٓاؤُ۫نَ ﴿٦﴾ وَيَمْنَعُونَ الْمَاعُونَ ﴿٧﴾

## Oxunuşu

[Bismilləhir-rahmənir-rahim

Əraəytəlləzi yukəzzibu biddin. Fəzəlikəlləzi yəduul yətim. Və lə yəhuddu alə taəmil miskin. Fəvəylul lil musallin. Əlləzinə hum an salətihim sahun. Əlləzinə hum yuraunə və yəmnəunəl məun]

## Məalı

Rəhman və Rəhmli Allahın adı ilə!

**1.** (Ya Peyğəmbər!) Dini (haqq-hesab gününü) yalan hesab edəni gördünmü? **2.** O elə adamdır ki, yetimi itələyib qovar (haqqını verməz); **3.** Və (xalqı) yoxsulu yedirtməyə təşviq etməz (nə özü fəqiri yedirdər, nə də özgəsini qoyar). **4.** Vay halına o namaz qılanların ki, **5.** Onlar öz namazlarından qafildirlər (Qıldıqları namazın dəyərini bilmir, namaza layiqincə diqqət ayırmazlar); **6.** Onlar (ibadətlərində) riyakarlıq edər, **7.** Və (xalqa) zəkat verməzlər).

## "KÖVSƏR" SURƏSİ

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّح۪يمِ

اِنَّٓا اَعْطَيْنَاكَ الْكَوْثَرَ ﴿١﴾ فَصَلِّ لِرَبِّكَ وَانْحَرْ ﴿٢﴾ اِنَّ شَانِئَكَ هُوَ الْاَبْتَرُ ﴿٣﴾

## Oxunuşu

[Bismilləhir-rahmənir-rahim

İnnə ə`daynə kəl kəvsər. Fəsalli li rabbikə vənhar. İnnə şəniəkə huvəl əbtər]

## Məalı

Rəhman və Rəhmli Allahın adı ilə!

**1.** (Ya Peyğəmbər!) Həqiqətən, Biz sənə Kövsər bəxş

etdik! **2.** Ona görə də (bu nemətlərə şükür edərək), Rəbbin üçün namaz qıl və qurban kəs! **3.** (Ya Peyğəmbər! Oğlun Qasım, yaxud İbrahim vəfat etdiyi zaman sənə sonsuz, arxası kəsik, nəsli kəsilmiş deyən) sənin düşməninin özü sonsuzdur! (Sənin nəslin qiyamətə qədər törəyib artacaq, adına isə həmişə rəhmət oxunacaqdır!)

## "KAFİRUN" SURƏSİ

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

قُلْ يَٓا اَيُّهَا الْكَافِرُونَ ﴿١﴾ لَٓا اَعْبُدُ مَا تَعْبُدُونَ ﴿٢﴾

وَلَٓا اَنْتُمْ عَابِدُونَ مَٓا اَعْبُدُ ﴿٣﴾ وَلَٓا اَنَا عَابِدٌ مَا عَبَدْتُمْ ﴿٤﴾

وَلَٓا اَنْتُمْ عَابِدُونَ مَٓا اَعْبُدُ ﴿٥﴾ لَكُمْ دِينُكُمْ وَلِيَ دِينِ ﴿٦﴾

### Oxunuşu

[Bismilləhir-rahmənir-rahim

Qul yə əyyuhəl kəfirun. Lə əʻbudu mə təʻbudun. Və lə əntum abidunə mə əʻbud. Və lə ənə abidum mə abəttum. Və lə əntum abidunə mə əʻbud. Ləkum dinikum vəliyə din]

### Məalı

Rəhman və Rəhmli Allahın adı ilə!

**1.** (Ya Peyğəmbər!) de: "Ey kafirlər! **2.** Mən sizin ibadət

etdiklərinizə (bütlərə) ibadət etmərəm! **3.** Siz də mənim ibadət etdiyimə (Allaha) ibadət etmirsiniz! **4.** Mən sizin ibadət etdiklərinizə ibadət edən deyiləm! **5.** Siz də mənim ibadət etdiyimə ibadət etməzsiniz! **6.** Elə isə sizin dininiz sizə, mənim dinim də mənə!"

## "NASR" SURƏSİ

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

إِذَا جَاءَ نَصْرُ اللَّهِ وَالْفَتْحُ ﴿١﴾ وَرَأَيْتَ النَّاسَ يَدْخُلُونَ فِي دِينِ
اللَّهِ أَفْوَاجًا ﴿٢﴾ فَسَبِّحْ بِحَمْدِ رَبِّكَ وَاسْتَغْفِرْهُ إِنَّهُ كَانَ تَوَّابًا ﴿٣﴾

### Oxunuşu

[Bismilləhir-rahmənir-rahim

İzə cə'ə nəsrullahi vəl-fəth. Vəraəytən-nəsə yədxulunə fi dinilləhi əfvəcə. Fəsəbbih bihəmdi rabbikə vəstəğfirhu innəhu kənə təvvəbə]

### Məalı

Rəhman və Rəhmli Allahın adı ilə!

**1.** (Ya Peyğəmbər!) Allahın köməyi və zəfər gəldiyi zaman; **2.** İnsanların dəstə-dəstə Allahın dininə (İslama) daxil olduqlarını gördüyün zaman **3.** Rəbbini həmd-səna ilə təqdis et və Ondan əfv dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir!

## "MƏSƏD" SURƏSİ

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّح۪يمِ

تَبَّتْ يَدَٓا اَب۪ي لَهَبٍ وَتَبَّ ﴿١﴾ مَٓا اَغْنٰى عَنْهُ مَالُهُ
وَمَا كَسَبَ ﴿٢﴾ سَيَصْلٰى نَارًا ذَاتَ لَهَبٍ ﴿٣﴾ وَامْرَاَتُهُ
حَمَّالَةَ الْحَطَبِ ﴿٤﴾ ف۪يج۪يدِهَا حَبْلٌ مِنْ مَسَدٍ ﴿٥﴾

### Oxunuşu

[ Bismilləhir-rahmənir-rahim

Təbbət yədə əbi ləhəbiv və təbb. Mə əğnə anhu məluhu və mə kəsəb. Səyəslə nəran zətə ləhəb. Vəmraətuhu həmmələtəl hədab. Fi cidihə həblum-mim-məsəd ]

### Məalı

Rəhman və Rəhmli Allahın adı ilə!

**1.** Əbu Ləhəbin əlləri qurusun, qurudu da! **2.** (Qiyamət günü) ona nə mal-dövləti fayda verəcək, nə də gördüyü işlər (və ya: oğul-uşağı). **3.** O, alovlu atəşə girəcəkdir. **4.** Zövcəsi də o atəşə odun daşıyacaq! **5.** Onun (övrətinin) boğazında xurma lifindən hörülmüş ip (və ya: yetmiş arşın uzunluğunda zəncir) olacaqdır!

## "İXLAS" SURƏSİ

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّح۪يمِ

قُلْ هُوَ اللّٰهُ اَحَدٌۚ ﴿١﴾ اَللّٰهُ الصَّمَدُۚ ﴿٢﴾ لَمْ يَلِدْ وَلَمْ يُولَدْۙ
﴿٣﴾ وَلَمْ يَكُنْ لَهُ كُفُوًا اَحَدٌ ﴿٤﴾

### Oxunuşu

[Bismilləhir-rahmənir-rahim

Qulhuvəllahu əhəd. Allahussaməd. Ləm yəlid vələm yuləd. Vələm yəkulləhu kufuvən əhəd]

### Məalı

Rəhman və Rəhmli Allahın adı ilə!

**1.** (Ya Peyğəmbər!) de: "O Allah birdir (heç bir şəriki yoxdur); **2.** Allah (heç kəsə, heç nəyə) möhtac deyildir! **3.** O, nə doğmuş, nə də doğulmuşdur! **4.** Onun heç bir tayı-bərabəri (bənzəri) də yoxdur!"

## "FƏLƏQ" SURƏSİ

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّح۪يمِ

قُلْ اَعُوذُ بِرَبِّ الْفَلَقِۙ ﴿١﴾ مِنْ شَرِّ مَا خَلَقَۙ ﴿٢﴾ وَمِنْ
شَرِّ غَاسِقٍ اِذَا وَقَبَۙ ﴿٣﴾ وَمِنْ شَرِّ النَّفَّاثَاتِ فِي الْعُقَدِۙ

وَمِنْ شَرِّ حَاسِدٍ اِذَا حَسَدَ ﴿٥﴾

## Oxunuşu

[Bismilləhir-rahmənir-rahim

Qul əuzu birabbil fələq. Min şərri mə xaləq. Və min şərri ğasiqin izə vəqab. Və min şərrinnəffəsəti fil-uqad. Və min şərri həsidin izə həsəd ]

## Məalı

Rəhman və Rəhmli Allahın adı ilə!

**1.** De: "Pənah aparıram sübhün Rəbbinə! **2.** Yaratdıqlarının (insanların, cinlərin, vəhşi heyvanların) şərindən; **3.** Zülmətə bürünməkdə olan gecənin (və ya: batan ayın, ziyası sönən ulduzların) şərindən; **4.** (Ovsun oxuyub) düyünlərə üfürən (yaxud: cadu edib iplərə düyün vuran) qadınların şərindən; **5.** Və bir də paxıllığı tutanda paxılın şərindən!"

## "NAS" SURƏSİ

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

قُلْ اَعُوذُ بِرَبِّ النَّاسِ ﴿١﴾ مَلِكِ النَّاسِ ﴿٢﴾ اِلٰهِ النَّاسِ
﴿٣﴾ مِنْ شَرِّ الْوَسْوَاسِ الْخَنَّاسِ ﴿٤﴾ اَلَّذٖى يُوَسْوِسُ
فٖى صُدُورِ النَّاسِ ﴿٥﴾ مِنَ الْجِنَّةِ وَالنَّاسِ ﴿٦﴾

## Oxunuşu

[Bismilləhir-rahmənir-rahim

Qul əuzu birabbinnəs. Məlikinnəs. İləhinnəs. Min şərril vəsvəsil xannəs. Əlləzi yuvəsvisu fi sudurinnəs. Minəl cinnəti vənnəs]

## Məalı

Rəhman və Rəhmli Allahın adı ilə!

(Ya Peyğəmbər!) De: "Pənah aparıram insanların Rəbbinə, insanların yeganə ixtiyar sahibinə, insanların Yaradanına o hiyləgər şeytanın şərindən. O şeytan ki, insanların ürəklərinə vəsvəsə salır, (o Şeytan ki) cinlərdən də olur, insanlardan da!"

# AYƏTÜL-KÜRSİ

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّح۪يمِ

اَللّٰهُ لَٓا اِلٰهَ اِلَّا هُوَۚ اَلْحَيُّ الْقَيُّومُۚ لَا تَأْخُذُهُ سِنَةٌ
وَلَا نَوْمٌۜ لَهُ مَا فِي السَّمٰوَاتِ وَمَا فِي الْاَرْضِۜ
مَنْ ذَا الَّذ۪ي يَشْفَعُ عِنْدَهُٓ اِلَّا بِاِذْنِه۪ۜ يَعْلَمُ مَا بَيْنَ
اَيْد۪يهِمْ وَمَا خَلْفَهُمْۚ وَلَا يُح۪يطُونَ بِشَيْءٍ مِنْ عِلْمِه۪ٓ
اِلَّا بِمَا شَٓاءَۚ وَسِعَ كُرْسِيُّهُ السَّمٰوَاتِ وَالْاَرْضَۚ
وَلَا يَؤُ۫دُهُ حِفْظُهُمَاۚ وَهُوَ الْعَلِيُّ الْعَظ۪يمُ ﴿٢٥٥﴾

## Oxunuşu

[Bismilləhir-rahmənir-rahim

“Allahu lə iləhə illə huvəl həyyul qayyum. Lə tə`xuzuhu sinətun və lə nəvm. Ləhu mə fissəməvəti və mə fil ərd. Mən zəlləzi yəşfəu indəhu illə biiznih. Ya`ləmu mə bəynə əydihim və mə xalfəhum və lə yuhitunə bişey`in min ilmihi illə bimə şə vəsia kursiyyuhus səməvəti vəl ərd və lə yəuduhu hifzuhumə və huvəl aliyyul azim]

## Məalı

Rəhman və Rəhmli Allahın adı ilə!

Allahdan başqa heç bir ilah yoxdur. (Zatı və kamal sifətləri ilə hər şeyə qadir olub bütün kainatı yaradan və idarə edən, bəndələrini dolandıran və onların işlərini yoluna qoyan) Hayy və Qayyum Odur. O, nə mürgü, nə də yuxu bilər. Göylərdə və yerdə nə varsa Onundur. Allahın izni olmadan (qiyamətdə) Onun hüzurunda kim şəfaət (bu və ya digər şəxsin günahlarının bağışlanmasını xahiş) edə bilər? O, bütün yaranmışların keçmişini və gələcəyini (bütün olmuş və olacaq şeyləri) bilir. Onlar (yaranmışlar) Allahın elmindən Onun Özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü (elmi, qüdrət və səltənəti) göyləri və yeri əhatə etmişdir. Göyləri və yeri hifz etmək Onun üçün heç də çətin deyildir. Ən uca, ən böyük varlıq da Odur!